| 2020-ci il ərzində "Yelo Bank" ASC xarici valyuta ilə bağlı riskin qarşısının alınması məqsədi ilə aşağıda qeyd olunan Hedcinq alətindən istifadə etmişdir. | |
|---|---|
| *FORWARD | Forvard müqaviləsi gələcəkdə müəyyən edilmiş bir tarixdə, müəyyən bir qiymətə hər hansı bir aktivi almaq və ya satmaq üçün iki tərəf arasında imzalanan xüsusi bir müqavilədir. Forvard əməliyyatları xarici valyuta kredit və borcları kimi bir sıra xarici valyuta öhdəlikləri olan şirkətlərin risklərini qorumağa xidmət edir. Forvard müqavilələri maliyyə sahəsində, xüsusilə də kapital bazarlarında kifayət qədər geniş yayılmış müqavilə növləridir. Forvard müqaviləsi üzrə uzun (long) ticarət mövqesi tutan müqavilə tərəfi aktivi almaq, qısa (short) mövqe tutan tərəf isə həmin aktivi satmaq öhdəliyi götürür. Forvard müqavilələri iri maliyyə təşkilatları (banklar, investisiya fondları, sığorta şirkətləri) tərəfindən əsasən hedcinq məqsədi üçün istifadə edilir. |